**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**FİLOLOGİYA FAKÜLTƏSİ**

**Təsdiq edirəm:**
**Filologiya fakültəsinin dekanı**
**Dos.E.H.Məmmədov**

**Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının**
**elmi-tədqiqat plan**
**işlərinin yerinə yetirilməsi haqqında**

# MƏLUMAT

**BAKI – 2018**

# 1. GİRİŞ

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ (professor- müəllim heyətinin yaş göstəriciləri əlavə etməklə)

**Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının 2017–ci il elmi–tədqiqat planının yerinə yetirilməsi haqqında**

**Məlumat**

2018- ci ildə kafedrada ştat üzrə 14 müəllim işləyir. Onlardan 9-u tam ştatda, 5-i 0,5 (yarım) ştatdadır. Ştatda olan müəllimlərdən 10 -nin elmi dərəcəsi var. Bir nəfər elmlər doktoru və 1professor, 1 nəfər fəlsəfə üzrə elmlər doktoru və dosent, 10 nəfər filologiya üzrə fəlsəfə doktoru və dosent, 1 nəfər filologiya üzrə fəlsəfə doktoru və müəllim, Ştatda olan müəllimlərdən ikisinin elmi dərəcəsi və elmi adı yoxdur.Kafedranın 2017-ci ilə aid elmi iş planı filologiya üzrə metodika məsələlərinə həsr edilmişdir. Bununla bərabər, dilə və ədəbiyyata aid nəzəri mövzulara da yer verilmişdir.

2017- ci ildə kafedranın müəllimləri və elmi işləri haqqında.

1. H.A.Əsgərov – 1959,Fil.e.d., professor, 0,5 ştat
2. R.İ.Quliyeva– 1947, f.ü.f.d, dosent, tam ştat
3. R.D. Mahmudova – 1950, f.ü.f.d., dosent, tam ştat
4 M.Ə.Qurbanova - 1953, f.ü.f.d., dosent, tam ştat
5. Ə.H. Cavadov - 1956, f.ü.f.d., dosent, tam ştat
6. İ.İ. Şəmsizadə – 1959, f.ü.f.d, dosent, tam ştat
7. M.Ə.Abdullayeva – 1961, fəl.e.d., professor, tam ştat
8. S.Ş.Mustafayeva – 1971, f.ü.f.d., dosent tam ştat
9. Ş.C.Abdullayeva – 1972, f.ü.f.d., dosent, tam ştat
10.Ş.X.Əliyeva – 1962, p.ü.f.d.,dosent,0,5 ştat
11. E.H.Məmmədov – 1973, f.ü.f.d., dosent, 0,5 ştat
12.S.F.Nağıyeva – 1972, f.ü.f.d., müəllim , 0,5 ştat
13. S.H.Rzayeva - 1950, müəllim, tam ştat
14.G.N.Abbasova – 1956, baş müəllim,tam ştat

**Planda nəzərə alınmış problemlər:**

1.Azərbaycan dili və ədəbiyyatının tədqiqinin nəzəri və praktik məsələləri

2.Azərbaycan dili və ədəbiyyatının tədrisi məsələləri.

## 3.KAFEDRALARDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ

**İş.Nitq mədəniyyəti tədrisi.**

**Mərhələ1. Natiqlik sənəti onun mahiyyəti və sahələri**

1. **İcraçı: Prof. H.A.Əsgərov.**

Hazırda Azərbaycanda təhsil islahatları uğurla həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsində dil-ana dili-təhsil problemi bir vahid kimi təsbit edilmişdir. Belə ki, milli şüuru inkişaf etdirmək üçün milli dili inkişaf etdirmək zəruri olduğu kimi, milli mədəniyyəti, mənəvi inkişafı təmin etmək üçün təhsili inkişaf etdirmək lazımdır. Bu konspektlər vəhdətdə alınaraq inkişaf etdirilir. Dilimizin yeni keyfiyyət alması, Avropa təhsil məkanına uğurla inteqrasiyası ilə yanaşı, milli mədəniyyətin tərkib hissəsi olan nitq mədəniyyəti problemləri də dövlətimizin diqqət mərkəzindədir. Müasir təhsil sistemində nitq mədəniyyəti məsələsi aktual problem kimi qarşıya qoyulur.

Azərbaycan dili və nitq mədəniyyəti dedikdə isə burada ritorika nəzəriyyəsi deyil, mədəni nitq vərdişlərinin öyrənilməsi nəzərdə tutulur, müasir Azərbaycan dili kimi nəzəri fənn nəzərdə tutulmur. Texniki, tibbi və s. bu kimi ixtisaslar alan tələbələr “Müasir Azərbaycan dili”nin nəzəri problemlərini öyrətmək çox da vacib deyil. Onlara ana dilində mədəni nitq vərdişlərinə yiyələnmək üçün dilimizin praktik məsələləri öyrədilməsi kifayətdir. Çünki ana dilinin sadə fonetik, leksik və qrammatik normalarını bilmədən mədəni nitqə sahib olmaq, habelə onu tədris etmək olmaz. Bu fənnin bütün ali məktəblərdə tədris edilməsi çox müsbət hadisədir. Lakin bu fənnin tədrisi metodikasına aid hələlik fundamental bir vəsait nəşr edilməmişdir.

Bu səbəbdən nitq mədəniyyətinin tədrisi ilə bilavasitə bağlı olan Azərbaycan dili təlimində nitq mədəniyyəti üzrə anlayışların rolu və yeri, nitq mədəniyyəti tədrisinin məqsəd və vəzifələri, nitqin düzgünlüyü, dəqiqliyi və ifadəliliyi anlayışlarının mənimsədilmsəi, nitq və nitq fəaliyyətinin öyrədilməsi, nitqin formaları, nitqin normaları anlayışlarının öyrənilməsi kimi məsələlərə xüsusi diqqət yetirilmişdir.

Elmi araşdırmada natiqlik sənətinin yaxın əlaqədə olduğu elm sahələri (dilçilik, ədəbiyyatşünaslıq, tarix, üslubiyyat, məntiq, etika, estetika, psixologiya və s. ) göstərilmiş və ən başlıcası bu əlaqələri zəruri edən şərtlər əsaslandırılmış, natiqlik sənətinin əsas keyfiyyətləri (düzgünlük, aydınlıq, məntiqilik, yığcamlıq, səlislik) və sahələri (bədii natiqlik, ictimai-siyasi natiqlik, akademik natiqlik, diplomatik natiqlik, məhkəmə natiqliyi, məişət natiqliyi, səhnə nitqi, dini natiqlik, hərbi natiqlik) nəzərdən keçirilmişdir.

Bundan əlavə, natiqlik sənətinin bir sahəsi kimi ictimai-siyasi natiqlik geniş şəkildə tədqiqata cəlb edilmiş, natiqliyin bu növünün təxmini sahələri müəyyənləşdirilmiş (prezidentlərin inaqurasiya nitqi, siyasi mövzuda məruzələr, hər hansı toplantıda hesabat məruzəsi, müzkirə çıxışı, icmal nitqi (son söz), mitinqlərdə çıxış, siyasi təbliğatçıların nitqi, şüarlar, qanunvericilik layihələri, parlament mübahisələri, siyasi icmalçıların nitqi, diplomatik aktlar, notalar, məktublar, prezidentlərin fərman və sərəncamları və s.) və onların hər birinə aid nümunələr verilmişdir.

**1.** «Mir Cəlal 100» Respublika elmi-nəzəri konfransının sədr müavinidir. (Bakı,"Elm və Təhsil", 01may 2018)

**2.**Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının sədr müavinidir. (15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil")

**3.**Azərbaycan xalqının ümummilli lideri Heyder Əliyevin 95 illik yubileyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının sədr müavinidir Bakı.-2018

**4.** Dissertasiya şurasının üzvüdür.

**İş. Azərbaycan dilinin nəzəri problemlərinin tədrisi metodikası.**

**Mərhələ1.Dilçiliyin şöbələri – fonetika, leksikologiya, frazeolgiya problemlərinin tədrisi.**

**2. İcraçı: dos. R.İ.Quliyeva**

“Fonetikanın tədrisi metodikası” adlı elmi-plan işində nəzəri və praktik dilçiliyin əsasını-bünövrəsini təşkil edən “Fonetika” şöbəsinin məqsəd və vəzifələrindən,fonetik vasitələrin tədrisi metodları, yolları,priyomlarından bəhs edilir.Ədəbi dilin şifahi və yazılı normaları fonetika vasitəsilə mənimsədilir. Praktik olaraq ədəbi dilin normaları silsiləsində danışıq sözlərini nitq axınında biri-birindən fərqli formalarda tələffüzünün tədrisi nitq mədəniyyətinin formalaşmasına zəmin yaradır. Elmi plan işində fonetika tədrisinin konkret və ümumi didaktik vəzifələri göstərilir, orfoepiya və orfoqrafiyanın mənimsədilməsində «Fonetika» təliminin böyük məna kəsb etməsi acıqlanır. «Fonetika» bəxsinin ənənəvi və müasir təlim metodları ilə tədrisi yolları göstərilir.

Kitab:1.Azərbaycan dili(Ali məktəb tələbələri və Azərbaycan dilini sərbəst öyrənənlər üçün dərslik)Bakı,”2018. Gənclik”nəşriyyatı.760 səh.

2. Nəsillərə nümunə olan ömur yolu.Azərbaycan xalqının ümummilli lideri Heyder Əliyevin 95 illik yubileyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının materialları. Bakı.-2018. səh.5-9.

3. Bəkir Çobanzadə və Azərbaycan dilinin tədrisi.”Azərbaycan dili: dünən və bu gün”mövzusunda Beynelxalq Elmi konfransın materialları. Bakı-2018. səh. 40-45.

4. İki dahinin görüşü: Professor Yusif Seyidovun “Mir Cəlal 100”monoqrafiyasına bir nəzər. Mir Cəlalın 110 illiyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransın materialları.Bakı-2018.səh.206-214.

5. Təşəkkürnamə - “Sosial və İqtisadi İslahatlara Dəstək” İctimai Birliyi tərəfindən- 2018

3.Bəkir Çobanzadə konfransının təşkilat komitəsinin üzvüdür.

**İş . F.Köçərlinin pedaqoji və metodiki görüşləri.**

**Mərhələ 1.F.Köçərlinin maarifçilik fəaliyyəti**

**3. İcraçı: dos. R.D.Mahmudova**

F.Köçərlinin maarifçilik fəaliyyəti adlı elmi işdə F.Köçərlinin yaradıcılığında və ictimai fəaliyyətində məktəbin, təhsil və tədris məsələlərinin həllində xüsusi rolu olduğu göstərilir.

Ədəbiyyatşünas alim, XX əsrAzərbaycan maarifinin nəzəri əsaslarının yaradıcılarından biri olan F.Köçərlinin elmi və publisistik məqalələri, dərsliktərtibihaqqındamülahizələrivəfikirləriaraşdırılır.

Böyükbirmüəllimnəslininyetişməsindəxidmətiolan, AzərbaycandamaarifvətəhsilməsələləriətrafındagedənmübahisəvəmüzakirələrdəfəaliştirakedənFirudinbəyKöçərlininzənginpedaqojiirsitədqiqedilir.

Məqalələr – 2018- ciil

1.HeydərƏliyevvəAzərbaycantəhsili. FilologiyanınaktualproblemlərimövzusundaRespublikaelmi-nəzərikonfransınınMaterialları. Bakı: «BakıUniversiteti», 2018, səh. 13-16

2. AzərbaycanXalqCümhuriyyətivətəhsil.Yenəorada, səh. 52-55

**4.İcraçı: M.Ə.Qurbanova**

**İş.Əcnəbilər üçün Azərbaycan dili dərsliklərində olan xüsusi adların linqvokulturoloji təhlili .**

**Mərhələ1.Antroponimlərin linqvokulturoloji təhlili.**

Plan işində «Azərbaycan dili» dərsliklərində olan xüsusi isimlər – insan adları, soyadlar və təxəllüslər linqvokultroloji aspektdən təhlilə cəlb olunmuşdur.

Antroponimlərdərsliklərdən xronoloji yolla seçilmiş, onların mənşəyi ərəb, fars, türk və ya Avropa mənşəli olması qeyd olunmuş. Fonetik cəhətdən təhlil olunmuşdur. Kultroloji baxımdan da xüsusən Avropa mənşəli adlar haqqında ensiklopediyadan və izahlı lüğətlərdən maraqlı məlumatlar toplanmışdır.

İlk dərslik 2006-cı ildə və sonuncu dərslik 2016-cı ildə nəşr olunmaqla 5 dərslikdən toplanmışdır.

2018-ci ildə nəşr olunmuş məqalələr:

1. «Azərbaycan dili» fənninin əcnəbilərə tədrisinin spesifik xüsusiyyətləri. B.Çobanzadə – 125. Azərbaycan dili: dünən və bugün» Beynəlxalq elmi konfransın materialları. B., 2018 «Zərdabi- nəşriyyatı», MMC. Səh.131-134

2. Kafedramızın sevimlisi. Bakı Universiteti 31 yanvar 2018-ci il.

3. Kafedramızınistəklisi. «Söz».Mart, 2018, səh.26-27

4.Hüseyn Cavid yaradıgılığının dil və üslub xüsusiyyətləri.H.Cavid və cağdaş Azərbaycan Filologiyası.Kuspublika elmi konfransının materialları.Bakı 15 noyabr 2018-ci il., səh31-38

5.XXərin əvvələrində Azərbaycan dilinin lüğət tərkibi haqqında qeydlər.Dil və ədəbiyyat.Bakı 2018. №2(106). Səh.52-56.

**5.İcraçı: dos. Ə.H.Cavadov**

**İş.Ümumtəhsil məktəblərinin Azərbaycan dili dərslikləri üçün tərtib olunmuş yeni metodik vəsaitlərdə müasir təlim üsullarının tətbiqi yolları.**

**Mərhələ1 V, VI və VII siniflər üçün Azərbaycan dili üzrə metodik vəsaitlərdə yeni təlim texnologiyalarından istifadə.**

“V, VI və VII siniflər üçün Azərbaycan dili üzrə metodik vəsaitlərdə yeni təlim texnologiyalarından istifadə” mövzusunda elmi-plan işinin

Kurikulum üzrə yeni proqramda məzmun xətlərinin reallaşması üçün bir sıra təlim texnologiyalarından (texnikalardan) istifadənin zəruriliyi ön plana çəkilir. Hər hansı bir dərsin təşkili zamanı düzgün metodun seçilməsi mühüm məsələlərdəndir. İnteraktiv metod məqsəd deyil, vasitədir. Məqsəd isə Milli Kurikulumda əsas və alt standartların reallaşdırılmasıdır. Təcrübə göstərir ki, konkreret standartın, təlim məqsədinin həyata keçirilməsi və müvafiq təlim nəticələrinin əldə edilnməsi üçün təklif olunan metodlar hökm şəklində deyil, tövsiyə kimi qəbul edilməlidir. Müəllim tədris zamanı bu metodlardan ən səmərili olanını özü seçməlidir. Hətta bir dərs daxilində bir neçə fəaliyyət modelindən və təlim üsulundan istifadə edilə bilər.

Müxtəlif siniflər üzrə tərtib olnmuş müəllim üçün metodik vəsaitlərdə (MMV-lərdə) ayrı-ayrı məzmun standartları üzrə konkret təlim metodlarından

istifadə edilməsi göstərilir. Burada təlim metodlarının əsasən üç standart üzrə tətbiq olunmasından söhbət gedir. Bunlar "Dinləyib-- anlama və danışma", "Oxu" və "Yazı" standartlarıdır. Məsələn, V sinif üçün yazılmış MMV-də bu üç standart üzrə mühazirə, auksion, sinkveyn, sual müsabiqəsi, ziqzaq və s. metodlardan istifadə olunası tövsiyə olunur. Elə mövzu var ki, orada bir metoddan istifadə olunur, elə mövzular vardır ki, orada metodlar bəzən bir neçə standart üzrə paylanır, bəzi hallarda isə bir standart üzrə bir neçə metoddan istifadə olunur.

VI sinif üçün tərtib olunmuş MMV-də məsələnin qoyuluşu bir qədər fərqlidir; belə ki, bu vəsaitdə təlim metodları ayrı-ayrı standartlar üzrə paylanır. Məsələn, "Yazı" standartı üçün təqdimat (məruzə), cəld yazı, sərbəst yazı , yazılı debat üsullarəndan istifadə məsləhət görülür, motivasiya mərhələsində isə anlayışın çıxarılması, auksion, klaster(şaxələndirmə), BİBÖ, beyin həmləsi, söz assosiasiyalarından istifadə məsləhət görülür.

VII sinif üçün tərtib olunmuş metodik vəsaitdə təlim texnologiyalarının nitq bacarıqlarını formalaşdırmağa və inkişaf etdirməyə yönəldiyi göstərilir. Bu sinifdə "Oxu", "Dinləyib-anlama və danışma" və "Yazı" standartları üzrə V-VI sinif Azərbaycan dili dərslərində istifadə olunan texnikalar qeyd olunur. Aşağı siniflərdən fərqli olaraq bu sinifdə insert, qeyd götürməklə oxu, ekspertlərlə müzakirə üsullarından da istifadə məsləhət görülür.

Məqalə:


**1.** Şəyyad Həmzənin "Yusif və Züleyxa" əsərinin tabeli mürəkkəb cümlə sisteminin struktur semantikası – "Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının materialları. 15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil", 2018 – səh. 227 – 232

**2.** M. P. Vaqif yaradıcılığının linqvopoetikası (dos. S. Seyidova ilə birlikdə). Monoqrafiya. Bakı: "Elm və təhsil", 2018 ( 7,5 çap vərəqi)

**İş. Əcnəbi tələbələrə Azərbaycan dilinin orfoepiya və orfoqrafiya qaydalarının mənimsədilməsi yolları..**

**Mərhələ1.Orfoepiya və orfoqrafiyanın fərqli xüsusiyyətəlrinin mənimsədilməsi üsulları**

**6.İcraçı: dos. İ.İ.Şəmsizadə.**

Elmi iş əcnəbi tələbələrə Azərbaycan dilinin tədrisi məsələlərindən, xüsusən əcnəbilərə dilimizin orfoepiya və orfoqrafiyasının fərqli xüsusiyyətlərinin mənimsədilməsi qaydalarından bəhs olunur. Qeyd edilir ki, Azərbaycan dilinin təbliğinin mühüm istiqamətləri içərisində ana dilimizi dünya meridianlarında təmsil etməyin əsas yollarından biri onun əcnəbi vətəndaşlara öyrədilməsi və tədris olunmasıdır. Azərbaycan dilini öyrənən əcnəbilər üçün tədris vəsaitlərinin bir çox hallarda müasir tələblərə cavab verməməsi hələ də narahatlıq doğuran əsas problemlərdən biridir və sözügedən məsələ yenidən prezident sərəncamı səviyyəsində gündəmə gəlmişdir.

Araşdırmada əcnəbilər üçün öyrədilməsi nəzərdə tutulan Azərbaycan dilinin orfoqrafiyası və orfoepiyasının ilkin və əsas qaydalarından danışılır, bu istiqamətdə bir çox fonetik hadisələr haqqında məlumat verilir. Mövzu üzrə müvafiq elmi ədəbiyyatlara istinad olunmuşdur.

Məqalələr

1. “Şəxsiyyət, obraz və millilik, cəmiyyət, incəsənət, ədəbiyyat və multikulturalizm”. səh. 325-332. Filologiya məsələləri №7, Elm və təhsil. Bakı-2018.
2. “Bədii dildə qırmızı rəngin semantikası”. Beynəlxalq Elmi-nəzərijurnal 2(106), Bakı-2018.

**3. Kitab:** Azərbaycan dili (Əcnəbi tələbələr üçün dərslik) – Knyaz Mirzəyev, İradə Şəmsizadə, Şəlalə Abdullayeva, Gülümsər Abbasova, ALMATI, Bakı 2018.

**İş . Nizami irsinin tədrisi məsələləri.**

**Mərhələ1. Nizaminin yaradjıcılığında təlim-tərbiyə məsələlərinin tədrisi**

7. **İcraçı: dos. M.Ə.Abdullayeva**

Elmi işdə göstərilir ki, Nizami Gəncəvi ədalətli cəmiyyətin qurulması üçün insanların, xüsusilə də, hökmdarların düzgün tərbiyəsi işini vacib məsələ sayırdı. Dahi mütəfəkkirin uşaqların tərbiyəsində biliyin, elmin rolunu, zəhmətkeşlik, səmimiyyət, mərhəmət, doğruluq kimi əxlaqi keyfiyyətlərin vacibliyini göstərməsiylə bərabər, insanın özünü ruhi varlıq olaraq tanıması və dərk etməsiproblemini hər şeydən önə çəkdiyi deyilir.Elmi işdə deyilir ki, ali məktəblərdə təsəvvüf ədəbiyyatının, o cümlədən, tədrisininonun ezoterik (gizli) müstəvinin araşdırılması istiqamətində qurulması vacibdir. Nizami yaradıcılığının tədrisi işinin həmin səviyyələri duymaq, anlamaq istiqamətində qurulması və tələbələrin batini mənaları araşdırmağın, alt strukturla işləməyin əhəmiyyətini dərk etmələri mühüm əhəmiyyət kəsb edir.Koqnitiv metaforaların mənimsənilməsi yolu ilə Nizami yaradıcılığının düzgün şərhi tədrisin başlıca məqsədini təşkil edir. Elmi işdə Nizaminin tərbiyə məsələsinə yanaşmasını, etik görüşlərini zahiri və batini deyə iki istiqamətdə nəzərdən keçirilir və qeyd olunur ki, koqnitiv metaforaların mənimsənilməsi yolu ilə Nizami yaradıcılığının düzgün şərhi tədrisin başlıca məqsədini təşkil edir.

**2018-ci ildə çap olunmuş əsərlər:**

1. AXC dövründə dil, məktəb və tədris məsələləri. Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2018. **(Dərs vəsaiti)**
2.İfadəli oxudan praktikum. Bakı,«Bakı Universiteti» nəşriyyatı, 2018.(**Proqram)**
3.I Türkoloji Qurultayında tədris və dil məsələləri. «Bakı Universiteti» nəşriyyatı, 2018. **(Proqram)**
4.AXC dövründə dövlət dili və təhsil problemləri. AXC-nin 100 ilik yubileyinə həsr olunmuş Beynəlxalq ElmiKonfransın materialları. BDU,21-23 may, 2018. **(Məqalə)**
5. «Açıq kitab» romanında psixologizm. «Mir Cəlal 100» Respublika elmi-nəzəri konfransının materialları, Bakı,”Elm və Təhsil”, 01may 2018. **(Məqalə)**
6.Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir. «Füyuzat” jurnalı №3 (101), 2018. **(Məqalə)**

7.I Türkoloji Qurultayda dilin tədrisi metodikası məsələsi. Bəkir Çobanzadə-125 «Azərbaycan dili:dünən və bu gün» mövzusunda Beynəlxalq elmi konfransın materialları, Bakı, 2018 . **(Məqalə)**
8.Cümhuriyyətimizin maarif ocağı. «Füyuzat» jurnalı №4 (102), 2018. **(Məqalə)**
9.Ways of understanding of philophical poetry. Cultural and Social History International Academic Journal. Volume 15, Issue II , 2018.səh.19-28
10. Humanist pedaqogikanın fəlsəfi əsasları. «Füyuzat» jurnalı ???

**İş . Təlim strategiyaları və onların təhsilin təşkilində rolu**

**Mərhələ1.Təlim strategiyası anlayışının mahiyyəti**

**8.İcraçı: dos. S.Ş.Mustafayeva**

Elmi işdə, adına uyğun olaraq, yeni təlim strategiyası anlayışının mahiyyəti məsələsindən bəhs olunur. Fəal/nteraktiv təlimlə bağlı bir çox məsələlər təhlil edilir. Fəal dərsin mərhələləri, təlimdə istifadə olunan iş üsuliarı, formaları və digər vasitələr haqqında ətraflı məlumat verilir.

Əvvəlcə təlim strategiyasının ifadə etdiyi, öyətmək, təlimatlandırmaq, anlamaq, başa salmaq kimi anlayışlar izah edilir və təlim prosesinin təs□kilinə verilən tələblərin, istifadə edilən forma, üsul və vasitələrin təlim strategiyalarının əsas tərkib hissəsini təşkil etdiyi qeyd olunur.

Müəllif müəyyənləşdirir ki, təhsilin əsas mahiyyətlərindən biri olan təlim strategiyası üç əsas tərkib hissəsinə ayrılır: 1.Təlimin təs□kilinə verilən əsas tələblər; 2.Təlim fəaliyyətinin planlaşdırılması; 3.Təlimdə istifadə olunan forma və u□sullar»

Bu tərkib hissələrinin hər biri , plan işində ayrıca təhlil edilir .

Təlimin təs□kilinə verilən əsas tələblər çərçivəsində, məktəblərdə təlimin əsas təs□kili forması kimi dərsin götürüldüyü, və dərsin təlimin məzmunu , prinsip-metodları ilə təmin olunduğu, mu□əllim tərəfindən mu□əyyən vaxt c□ərc□ivəsində planlas□dırıldığı, tənzim edildiy, eyni zamanda da mu□əllim-s□agird mu□nasibətlərinin formalaşdığı bir proses kimi öz əksini tapır.

Təlim fəaliyyətinin planlaşdırılması ilə bağlı olaraq isə dövlət tərəfindən şagirdin bilik və bacarığına qoyulan tələbə, yəni standarta nail olmaq üçün planlaşdırmanın iki növündən — prespektiv (illik) və cari (gündəlik) planlaşdırmadan istifadə olunduğu vurğulanır. İşdə, həm də təlimin əsas kompanentlərindən biri olan standartlar haqqında da məlumat verilir.

«Təlimdə istifadə olunan forma və u□sullar » daxilində iş formaları, yəni fərdi , qruplarla, cütlərlə və kollektivlə iş haqqında geniş məlumat verilir. Burada cütlərlə, kiçik, böyük qruplarla işin təşkili və əhəmiyyətindən bəhs edilir. Fərdi və

kollektiv iş formalarından bəhs edərkən isə ,həmin formalar haqqında elmi-nəzəri məsələlər təhlil edilərək, metodistlərin fikirlərinə münasibət bildirilir.

Müəllif, eyni zamanda, praktik məsələlərə aydınlıq gətirmək məqsədilə iş formalarından iki: kollektiv iş, və qruplarla iş formasında dərs nümunəsi də təqdim edir.Elmi iş başa çatmış və kafedraya təqdim edilmişdir.

Hesabat ilində S.Mustafayevanın iki məqaləsi çap olunmuşdur.

1. Azərbaycan ədəbi dili tarixinin dövrləşdirilməsi təcrübəsi. “Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası” Respublika elmi konfransının materialları. 15 noyabr 2018-ci il. Bakı: “Elm və təhsil”, 2018 – səh. 266-274

2. Azərbaycan ədəbi dili tarixinin dövrləşdirilməsi prinsipləri, «Dil və ədəbiyyat» Beynəlxalq elmi-nəzəri jurnal. № 4 (108 ). Bakı , səh.

**İş . Azərbaycan dili semasiologiyasının tədrisi metodikası**

**Mərhələ 1.Dilçiliyin semasiologiya şöbəsinin tədqiqi və əsas xüsusiyyətlərinin tədrisi məsələləri.**

**9. İcraçı: dos. Ş.X.Əliyeva**

Elmi işdə dilçiliyin semasiologiya şöbəsinin tədqiqi və tədrisi məsələləri araşdırılır. Azərbaycan diliçiliyində semasiologiyanın tədqiqi tarixinə nəzər salınır. Semasiologiyanın əsas mövzuları olan çoxmənalılıq, omonimlik, sinonimlik və antonimlik kimi semantik proseslərin tədrisi məsələləri konkret nümunələrə əsaslanaraq diqqətə çatdırılır.

Dildə semasiologiya və ya semantika məsələsi hər zaman öz aktuallığı ilə seçilmiş,dildə mövcud olan bir neçə problemlərin həllinə kömək etmiş, məna anlayışının, məna qruplarının aydınlaşası ilə bəzi məsələlərə aydınlıq gətirilmiş (məs, sözlərin məna baxımından müəyyən sistemə aid edilməsi ilə onların işlənmə məqamlarını genişləndirmiş, leksik üslubiyyata emosionallıq, ifadəlilik, canlılıq gətirməsi aydınlaşmış), eyni zamanda mənanın dildə nə dərəcədə mühüm rol oynadığı öz təsdiqini tapmışdır.

**Məqalə: 1.**Dilçiliyin semosiologiya şöbəsinin tədqiqi və əsas xüsusiyyətlərinin tədrisi. “Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası” Respublika elmi konfransının materialları. 15 noyabr 2018-ci il. Bakı: “Elm və təhsil”, 2018 – səh. 240-250

2. Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi üzrə işlərin məzmunu və əsas istiqamətləri. "Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının materialları. 15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil", 2018. səh. 219-227

**10.İcraçı: dos.əv. E.H.Məmmədov**

**İş. Yeni dövr Azərbaycan ədəbiyyatı və onun tədrisi problemləri.**

**Mərhələ 1.XVII – XVIII əsrlər Azərbaycan ədəbiyyatı tədrisi məsələləri.**

XVII-XVIII əsrlər yeni dövr Azərbaycan ədəbiyyatının birinci mərhələsidir. Yeni Azərbaycan ədəbiyyatının, eləcə də yeni Azərbaycan ədəbi dilinin formalaşması bu dövrdən başlayır. Realistləşmə, demokratikləşmə və xəlqiləşmə XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının səciyyəvi xüsusiyyətləri olmaqla, ədəbiyyatımızın sonrakı inkişaf dinamikasını müəyyənləşdirən əsas istiqamətlərdir. Bu dövr Azərbaycan ədəbiyyatının tədrisində həmin istiqamətlərin nəzərə alınması ədəbiyyayımızın düzgün metodoloji prinsiplər əsasında öyrədilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Elmi işdə qeyd olunan məsələlər əhatəli araşdırılmışdır.

2018-ci ildə 1məqaləsi, 1 dərs vəsaiti,3 Respublika, 2 Buynəlxalq konfranlarda təşkilat komitəsinin üzvüdür.

1.Bəkir Çobanzadə və ÜmumTürk əlifbası məsələləri. Bəkir Çobanzadə-125 «Azərbaycan dili: dünən və bu gün» mövzusunda beynəlxalq konfransın materialları. Bakı , 2018. Səh.3.(məqalə)

**2.** AXC dövründə dil, məktəb və tədris məsələləri. Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2018. **(Dərs vəsaiti)**

**3.** «Mir Cəlal 100» Respublika elmi-nəzəri konfransının sədr müavinidir. (Bakı,"Elm və Təhsil", 01may 2018)

**4.**Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının sədr müavinidir. (15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil")

**5.**Azərbaycan xalqının ümummilli lideri Heyder Əliyevin 95 illik yubileyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının sədr müavinidir Bakı.-2018

6.Uluslararası Böyük Türk dili Qurultayı.Buynəlxalq konfransın təşkilat komitəsinin üzvüdür.(Varşava 25-28. sentyabr. 2018

**İş XIV. Azərbaycan dili fənnin tədrisində istifadə edilən təlim metodları.**

**Mərhələ 1. Azərbaycan dili dərslərində istifadə edilən ənənəvi və müasir təlim metodlarının xarakterik xüsusiyyətləri.**

**11. İcraçı: müəllim S.H.Rzayeva**

"Azərbaycan dili dərslərində istifadə edilən ənənəvi və müasir təlim metodlarının xarakterik xüsusiyyətləri" mövzusunda elmi tədqiqat işi "**Giriş", iki fəsil, "Nəticə" və istifadə olunmuş ədəbiyyat siyahısından** ibarətdir.

**"Giriş"də** elmi plan işinin məqsədi, mahiyyəti, Azərbaycan dili dərslərinin düzgün təşkili qanunauyğunluqlarından söz açılır.

**"Azərbaycan dili dərslərində ənənəvi təlim metodları"** adlanan I fəsildə Azərbaycan dili dərslərində tətbiq olunan ənənəvi təlim metodlarından danışılır. Ənənəvi təlim metodları haqqında elmi-nəzəri və təcrübi mülahizələrin ayrı-ayrı pedaqoji ədəbiyyatlarda, fundamental tədqiqatlarda öz əksini tapdığı göstərilir.

**"Azərbaycan dili dərslərində müasir təlim metodlarından istifadə"** adlı II fəsildə isə Azərbaycan dili dəsrlərində tətbiq olunan müasir təlim metodları, onlarla ənənəvi üsullar arasındakı əlaqə və münasibətlər geniş şəkildə şərh olunur.

**"Nəticə"** hissəsində göstərilir ki, ənənəvi və müasir təlim metodlarının hər biri özünəxas pedaqoji üstünlükləri ilə seçilir. Ənənəvi metodlar səmərəliliyi öz təcrübəsi ilə sınanmış və uzun bir vaxtdır ki, təlimdə aparıcı mövqeyi ilə seçilmişdir. Lakin yeni dövrün qabaqcıl təcrübəyə inteqrasiyası təlim metodlarının təkmilləşdirilməsi, yeniləşməsi zərurətini doğurmuşdur.

**2018-ci ildə Sevda Rzayevanın 2 məqaləsi çap olunub.**

1. Azərbaycan dili dərslərində müasir təlim metodlarından istifadə. Filologiya məsələləri №12, Bakı 2018., səh.207-215

2.Azərbaycan dili dərslərində ənənəvi təlim metodları.Dil və ədəbiyyat №3(107), Bakı 2018

**İş. Azərbaycan dili üslublar sisteminin tədrisi metodları**

**Mərhələ 1. Funksional üslublar və onların xarakterik xüsusiyyətəlrinin tədrisi.**

**12. İcraçı: Baş müəllim G.N.Abbasova.**

Elmi işdə Azərbaycan dilinin üslublar sistemindən və onların tədrisi məslələrindən bəhs olunur. Azərbaycan ədəbi dilinin funksional üslubları və onların xarakterik cəhətləri, eləcə də aralarındakı mövcud fərqlər diqqətə çatdırılır. Üslubların tədrisi zamanı dil sisteminin vahidlərinə diqqət yeriliməsinin vacibliyi irəli sürülür. Xüsusilə elmi üslubda morfoloji əlamət kimi modal sözlər və sintaktik əlamət kimi mürəkkəb cümlələrdən geniş istifadə olunduğu vurğulanır. Hər bir üsluba xas olan xüsusiyyətlər qeyd olunur və üslublar nümunələr əsasında izah olunur. Üslublar tədris olunarkən onların ədəbi dilin müəyyən tarixi mərhələsində yarandığı qeyd olunur. Bədii üslubun ən qədim və geniş yayılmış üslub olduğu konkret nümunələrlə əsaslandırılır.Qeyd olunur ki, ədəbi dil normalarının düzgün istifadəsi nitqin dəqiqliyinə, düzgünlüyünə, yığcamlığına səbəb olur və dilin üslubi imkanlarını ortaya çıxarır.

Azərbaycan ədəbi dilində funksional üslublar mühüm rol oynayır ki, onlarında hər birinin yaranıb formalaşması müəyyən tarixi dövrdə mümkün olmuşdur. Qeyd edilməlidir ki, hər bir dilin funksional üslubları ümumi və obyektiv mahiyyət daşıyır, yəni hər üslubun öz ifadə imkanları, öz ifadə formaları var.

Beləliklə, qeyd edə bilərik ki, üslubların tədrisi zamanı ilk növbədə tarixilik nəzərə alınmalı, üslublarda fonetik, leksik, morfoloji, sintaktik vahidlərin roluna diqqət çəkilməli və üslubların fərqləndirilməsində onlar nəzərdə saxlanılmalıdır.

**2018-ciildəçarolunmuşelmiəsərlərinsiyahısı**

1. Azərbaycandili (əcnəbitələbələrüçündərslik). Müştərək. Almatı-2018. 389 səh.
2. «Dastani-ƏhmədHərami»poemasınındilindəişlənənərəb-farssözlərininleksik-semantikxüsusiyyətləri. (məqalə) «BeynəlxalqElmi-Nəzərijurnal» №3(107). Bakı-2018.Səh.195-197.

3. Azərbaycandiliüslublarsisteminintədrisiməsələləri.(məqalə), «Filologiyaməsələləri», №15, Bakı-2018, Səh.118-126

**İş. Əcnəbi tələbələrə Azərbaycan dili frazeologiyasının öyrədilməsi yolları.**

**Mərhələ1. Frazeoloji birləşmələrlə mürəkkəb sözlərin və sərbəst birləşmələrin oxşar və fərqli cəhətlərinin mənimsədilməsi.**

**13. İcraçı: dos.Ş.C.Abdullayeva**

Frazeologizmləri özünəməxsus şəkildə mikromətn də adlandırmaq olar. Bədii əsərlərdə frazeoloji birləşmələr nitqin forma və məna gözəlliyini özündə əks etdirən stilistik daşlaşmış versiyalardır. Bu baxımdan onları hərfi tərcümə etmək olmur başqa dillərə və anlaşılmır. Belə birləşmələr nitqə, dilə rəngarəng emosional çalarlar verir. Onu da qeyd etmək lazımdır ki, sərhədyanı, yəni qonşu məkanlarda, torpaqlarda yerləşən xalqların musiqisi, adət-ənənələri, folkloru, mifologiyası uzaq səmtlərdə yaşayan millətlərinkindən daha yaxındır. Sözlə frazeoloji birləşmələr arasındakı oxşarlıq, hər ikisinin məna və qrammatik funksiya daşımasıdır. Feili idiomatik ifadələrin əksəriyyəti mürəkkəb sözlərə yaxındır. Mürəkkəb sözlərin böyük əksəriyyəti təkamül prosesi nəticəsində bu qrupa daxil olan ifadələrdən yaranmışdır. Məsələn, dili gödək olmaq – diligödək, göz oxşamaq – gözoxşayan, göz yummaq – gözüyumulu, cəlb edən – cəlbedici və s.

Frazeoloji vahid sərbəst söz birləşməsinin modelləri üzrə törəyir. Sərbəst söz birləşməsinin frazeoloji vahidə çevrilməsi, sadəcə sözlərin məcazi məna alması söz birləşməsindən xüsusi dil vahidinin alınmasıdır. Sabit söz birləşmələrinin tərkibindəki sözləri ayrı-ayrılıqda analiz etmək imkansız bir şeydir. Məsələn, qara sudan qaymaq tutan – qoçaq adam; abrını ətəyinə bükmək – danlamaq; ağlını başına yığmaq – ağıllanmaq, fikirləşmək; başından yekə danışmaq – lovğa-lovğa danışmaq və s.

**Kitab:** Azərbaycan dili (Əcnəbi tələbələr üçün dərslik) – Knyaz Mirzəyev, İradə Şəmsizadə, Şəlalə Abdullayeva, Gülümsər Abbasova, ALMATI, Bakı 2018.

**İş. Milli bədii nəsrin poetik xüsusiyyətlərinin tədrisi.**

**Mərhələ 1.İsa Hüseynov nəsrinin poetik xüsusiyyətlərinin tədrisi məsələləri.**

**14. S.F.Nağıyeva, f.ü.f.d., müəllim, 0,5 ştat**.

İsa Hüseynov Azərbaycan ədəbiyyatının "altmışıncılar" adı ilə qəbul olunan parlaq ədəbi nəslinə mənsubdur.

1960-cı illərdə başlayaraq Azərbaycan ədəbiyyatında yeni poetik tendensiyalar formalaşmağa başlayır. Çünki həmin dövrdə əvvəlki illərin ölçülü bəzən poetik ənənələrə söykənən əsərlərdən fərqli həyat həqiqətlərinə yeni rakusdan baxıb yeni,orujinal tərzdə təsvir edən,məna verən nəsr əsərləri yaranmağa başlayır.

Təsadüfi deyil ki, 60-cı illər nəsrinin keyfiyyət özəlliklərindən bəhs edən bütün mətnlərdə İsa Hüseynovun rolu bu yöndəxüsusi önə çəkilir,mənəvi diriliyin,qurulan səhmanin, yeni düşüncə hərəkatının təməli olaraq dəyərləndirilir.

İsa Hüseynov nəsrini, bütövlükdə yaradıcılığını poetika – sənətkarlıq açarı hesab etmək olar. Yazıçının yaradıcılığının portik strukturunda özünü göstərən müxtəlif üsullardan biri də görkəm ardından mahiyyəti, daxilı məkanı bədii obrazlarda portret detalları vasitəsi ilə süjet xəttinin inkişaf mərhələlərində tamamlamaqdır.

İsa Hüseynov nəsrinin müvəfəqiyyəti sadəcə olaraq ədəbiyyata yeni mövzu, problem, yeni qəhrəman, xarakter gətirməklə, mühitin antihumanist mahiyyətini açmaqla məhdudlaşmadı, həm də nəsrimizə gətirdiyi yeni üslub o qədər fərqli oldu ki, Azərbaycan nəsrində zaman və məkan çoxqatlılığı, daxili – psixoloji dialoqlar, hadisələrə fəlsəfi yanaşmalar, bir anın içinə bütöv bir dövrü sığdırmaq kimi yeni formalar görünməyə başladı.

**Məqalə:1.**М.Э.Расулзаде: Время, Окружение. Творчество."Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının materialları. 15 noyabr 2018-ci il. Bakı -2018 "Elm və təhsil", səh.99-107.

**4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI.**

Hesabat dövründə 29 məqalə, 2 dərslik, 2 dərs vəsaiti şərikli, 1 monoqrafiya, 3 proqram çap olunmuşdur. Məqalələr Azərbaycan dilinin və ədəbiyyatının nəzəri və tədrisi məsələlərinə həsr olunmuşdur. Kafedranın ümumi balı 1621 baldır.

**5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ**–Yoxdur.

**6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR** – Vardır : Kafedranın əməkdaşları vaxtaşırı AMEA–ya ixtisasartırmaya gedirlər. AMEA–da keçirilən konfranslarda, seminarlarda iştirak edirlər.

**7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.** Yoxdur.

**8. ELMİ–TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ.**

Elmi–tədqiqat işlərinin nəticələri ali və orta məktəb dərsliklərinin tərtibində istifadə oluna bilər.

**9.PATENT VƏ İNFORMASİYA İŞLƏRİ**–Yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI**: Kafedrada 2017-2018-ci illər üçün nəzərdə tutulmuş elmi plan işinin əsasında 2019-cu ilin elmi iş planı tərtib edilmiş və hər bir müəllimə konkret iş tapşırılmışdır.

**11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI.**

Kafedranın üzvləri fakültədə və universitetde keçirilən bir sıra elmi konfransların təşkilində iştirak elmişlər.

**4. Prof. H.A.Əsgərov:**

**1.**«Mir Cəlal 100» Respublika elmi-nəzəri konfransının sədr müavinidir. (Bakı,"Elm və Təhsil", 01may 2018)

**2.**Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının sədr müavinidir. (15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil")

**3.**Azərbaycan xalqının ümummilli lideri Heyder Əliyevin 95 illik yubileyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının sədr müavinidir Bakı.-2018

**Dos. Rəhilə Quliyeva:**

1. Nəsillərə nümunə olan ömur yolu.Azərbaycan xalqının ümummilli lideri Heyder Əliyevin 95 illik yubileyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının materialları. Bakı.-2018. səh.5-9.

2. Bəkir Çobanzadə və Azərbaycan dilinin tədrisi.”Azərbaycan dili: dünən və bu gün”mövzusunda Beynelxalq Elmi konfransın materialları. Bakı-2018. səh. 40-45.

3. Bəkir Çobanzadə və Azərbaycan dilinin tədrisi.”Azərbaycan dili: dünən və bu gün”mövzusunda Beynəxalq Elmi konfransın materialları jurnalının təşkilat komitəsinin üzvüdür.- 60 bal.

4.İki dahinin görüşü: Professor Yusif Seyidovun “Mir Cəlal 100”monoqrafiyasına bir nəzər. Mir Cəlalın 110 illiyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransın materialları.Bakı-2018.səh.206-214.

**Dos. M.Qurbanova**:

1. «Azərbaycan dili» fənninin əcnəbilərə tədrisinin spesifik xüsusiyyətləri. B.Çobanzadə – 125. Azərbaycan dili: dünən və bugün» Beynəlxalq elmi konfransın materialları. B., 2018 «Zərdabi- nəşriyyatı», MMC. Səh.131-134
2. Hüseyn Cavid yaradıgılığının dil və üslub xüsusiyyətləri.H.Cavid və cağdaş Azərbaycan Filologiyası.Respublika elmi konfransının materialları.Bakı 15 noyabr 2018-ci il., səh31-38

**Dos.RənaMahmudova**:

1.HeydərƏliyevvəAzərbaycantəhsili. FilologiyanınaktualproblemlərimövzusundaRespublikaelmi-nəzərikonfransınınMaterialları. Bakı: «BakıUniversiteti», 2018, səh. 13-16

**Dos. M.Abdullayeva:**

1.AXC dövründə dövlət dili və təhsil problemləri. AXC-nin 100 ilik yubileyinə həsr olunmuş Beynəlxalq ElmiKonfransın materialları. BDU,21-23 may, 2018.
2. «Açıq kitab» romanında psixologizm. «Mir Cəlal 100» Respublika elmi-nəzəri konfransının materialları, Bakı,”Elm və Təhsil”, 01may 2018.
3.Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir. «Füyuzat” jurnalı №3 (101), 2018.
4.I Türkoloji Qurultayda dilin tədrisi metodikası məsələsi. Bəkir Çobanzadə-125 «Azərbaycan dili:dünən və bu gün» mövzusunda Beynəlxalq elmi konfransın materialları, Bakı, 2018 .

**Dos.Ə.H.Cavadov:**

**1**Şəyyad Həmzənin “Yusif və Züleyxa” əsərinin tabeli mürəkkəb cümlə sisteminin struktur semantikası“Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası” Respublika elmi konfransının materialları.15 noyabr 2018-ci il.Bakı:“Elm və təhsil”, 2018səh.227-232

**Dos.S.Ş.Mustafayeva:**

1. Azərbaycan ədəbi dili tarixinin dövrləşdirilməsi təcrübəsi. "Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının materialları. 15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil", 2018 – səh. 266-274

**Dos.Ş.X.Əliyeva**:

1. Dilçiliyin semosiologiya şöbəsinin tədqiqi və əsas xüsusiyyətlərinin tədrisi. "Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının materialları. 15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil", 2018. səh. 240-250

2.Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi üzrə işlərin məzmunu və əsas istiqamətləri. "Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının materialları. 15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil", 2018. səh. 219-227

**Dos.əv. E.H.Məmmədov:**

**1.** Hüseyn Cavid və çağdaş Azərbaycan filologiyası" Respublika elmi konfransının sədr müavinidir. (15 noyabr 2018-ci il. Bakı: "Elm və təhsil")

**2.**Azərbaycan xalqının ümummilli lideri Heyder Əliyevin 95 illik yubileyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının sədr müavinidir Bakı.-2018

**3.**Uluslararası Böyük Türk dili Qurultayı.Buynəlxalq konfransın təşkilat komitəsinin üzvüdür.(Varşava 25-28. sentyabr. 2018

## 12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ – PEDAQOJİ KADRLARIN HAZIRLANMASI.

Kafedrada gənc işçilərin müəllim kimi hazırlanmasına diqqət yetirilir. Hal-hazırda kafedrada müəllim işləyən elmi dərəcəli ve elmi adı olan müəllimlərin bir çoxu kafedranın yetirmələridir.

## 13.DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ.

Prof.Hüseyn Əsgərov Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Elmi Şurasının üzvüdür.

Dos. Rəhilə Quliyeva Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən D.02.181.Dissertasiya şurası yanında Elmi seminarın üzvüdür.

Dos. Rəhilə Quliyeva Bakı Dövlət Universitetinin Filologiya

fakültəsinin Metod Şurasının üzvüdür.

Prof.əv.Mətanət Abdullayeva Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən D.02.181.Dissertasiya Şrasının elmi katibidir.

Prof.əv.Mətanət Abdullayeva Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Elmi Şurasının üzvüdür.

Dos.Əhəd Cavadov Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Elmi Şurasının üzvüdür.

Dos.əv.Elçin Mmmədov Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Elmi Şurasının sədridir.

**14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ- TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI).**

**15. 2018- Cİ İLDƏ HANSI AVADANLIQLARIN ALINMASINA EHTİYAC DUYULUR.**Kafedranın kompyuterə ehtiyacı var.

**16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR.**

Kafedranın müəllimlərinin əksəriyyəti pedaqoji işlə, bir çoxu isə ciddi elmi- tədqiqatla məşğuldur. Yaxşı olar ki, maaşlar pedaqoji iş üçün ayrı, elmi işlər üçün ayrı verilsin.

**Kafedra müdiri:** **prof.H.A.Əsgərov**